*Aytən Rüstəmzadə. İlyas Əfəndiyevin "Büllur sarayda" pyesində mənəvi-əxlaqi dəyərlər // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.62-67.*

UOT: 82.0

**Aytən Rüstəmzadə**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Bakı şəhəri, H.Cavid prospekti, 115*
*ayten_rustamzade@mail.ru*

# İLYAS ƏFƏNDİYEVİN "BÜLLUR SARAYDA" PYESİNDƏ MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏR

**Açar sözlər:** *İ.Əfəndiyev, pyes, mənəvi-əxlaqi dəyərlər, sosial təbəqələr, obraz*
**Key words:** *I.Əfəndiyev, play, moral and ethics valuable, social status, image*
**Ключевые слова:** *И.Эфендиев, пьеса, морально-этические ценности, социальные слои, образ*

*XX əsr Azərbaycan ədəbiyyatının klassiki, xalq yazıçısı İlyas Əfəndiyevin zəngin ədəbi irsi-istər bədii nəsri, istərsə də dramaturgiyası həm oxucuların, həm də rədiqatçıların diqqət mərkəzində olmuşdur. İlyas Əfəndiyevin səhnə əsərləri 1970–1980-ci illər Azərbaycan dramaturgiyasında da mühüm yer tutur. Bildiyimiz kimi, ədəbi fəaliyyətini həmişə ardıcıl davam etdirən İlyas Əfəndiyev 70–80-ci illərdə "Qəribə oğlan", "Bağlardan gələn səs","Büllur sarayda", "Bizim qəribə taleyimiz" kimi müasir mövzulu, "Mahnı dağlarda qaldı", "Xurşudbanu Natəvan","Şeyx Xiyabani" kimi sözün həqiqi mənasında tarixi və hadisələri keçmişdən götürülmüş dramlarla ədəbiyyatımızı zənginləşdirmişdir. Bu əsərlər teatrlarımızın repertuarında da öz layiqli yerini tutmuşdur.*

İnsanın mənəvi dunyası, milli mənafe ilə bağlı düşüncələri, ailədə və cəmiyyətdə mövqeyi, səadət axtarışları, həqiqət uğrunda mübarizəsi, məhəbbət duyğuları, sevinc və iztirabları, qələbə və uğursuzluqları İ.Əfəndiyevin müşahidə dairəsindən heç vaxt kənarda qalmamışdır. O, bu cür mürəkkəb məsələləri müxtəlif aspektlərdən işıqlandıraraq müasir həyatın tələbləri ilə səsləşən inkişafın real səciyyəsindən doğan vacib sosial-əxlaqi vəzifələri qarşıya qoyur. İnsanı mühitində konkret ictimai varlıq səviyyəsinə qaldırmaq üçün realist sənət prinsiplərinə arxalanır.

Bir sıra zəruri mətləblərə, aktual mənəvi və ictimai motivlərə müəllif 1983-cü ildə meydana çıxan "Büllur sarayda" dramında da toxunmuş, hətta əqidə, əməl və xarakter etibarı ilə bəzi bir-birinə yaxın obrazlar yaratmaqdan çəkinməmişdir. Başqa sözlə, bir-birinə yaxın obrazları biz təkrarçılıq kimi qəbul edə bilmərik. Bu, əsasən, mövzuya sədaqətdən, həyati tələblərdən və estetik niyyətdən irəli gəlir. Yüksək amal zirvəsindən çıxış edərək həqiqəti, gözəlliyi təsdiq, mənfilik və eybəcərliyi tənqid "Büllur sarayda" dramına güclü müasirlik ruhu aşılamışdır.

Əsərdə insanın həyatda xoşbəxtliyi, ailədə və cəmiyyətdə mövqeyi kimi əhəmiyyətli məsələlər qaldırılır, onların uğrunda axtarışlar, mübarizə və görüşlər əks olunur.

Birinci şəklin müəyyən hissəsi, bir də dördüncü şəkli istisna etmək şərtilə, bütün şəkillər, əsasən Ağahüseynin bağ evində cərəyan edir. "Büllur saray" adlandırılan da bu mülkdür. Hadisələrin demək olar ki, eyni konkret obyektdə cərəyan etməsi mühüm kompozisiya xüsusiyyətidir. Bu xüsusiyyət, bildiyimiz kimi, özünü "Atayevlər ailəsi" pyesində də, "Qəribə oğlan" komediyasında da özünü göstərmişdir. Süjetin ağırlıq mərkəzi hüdudunda bir ailədən, bir

evdən, bir pansionatdan, bir malikanədən yalnız ideya-bədii fikrin başlanğıc məqamı kimi deyil, həm də davamı və inkişaf meydanı kimi istifadə olunmuşdur.

Bir tikinti obyekti kimi "Büllur saray" gözəldir, günəş şüaları altında bərq vurur, hətta nağıllardakı malikanələri xatırladır. Əlbəttə, bu saray halal zəhmətin yox, əyri yollarla mənimsənilən sərvətin hesabına ucaldılmışdır.

Oxucu və tamaşaçı tədricən "saray" sakinlərinin mənəvi aləmi, həyatı və cəmiyyətə baxışı ilə tanış olur. İnsan əməyi, ləyaqəti və vicdanı əleyhinə xəyanətin, qəsdin, işıqlı ideallara, sağlam prinsiplərə qarşı cinayətin mahiyyəti daxili təzadlarda və dramatik lovhələrdə aşkar edilir. Ümumiyyətlə, əsərdə insani ucaldan və alçaldan fikirlər və ehtiraslar inikas predmetinə çevrilir, xarakterlər də məhz bu güzgüdə öz əksini tapmış olur.

İnsanlığa çağırış, mənəvi ucalığa və halal zəhmətə çağırış, müəllifin bütünlükdə yaradıcılığında olduğu kimi, bu dramında da güclüdür.

"Büllur sarayda" pyesində müxtəlif taleli, müxtəlif əqidəyə malik və müxtəlif səciyyəli obrazlar var. Mülkün sahibi, vəzifəli şəxs olan Ağahüseyn, həyat yoldaşı Cavahir xanım, qızı Lalə, kürəkəni Fariz, ailənin dostu Qədim və onun katibəsi Sədaqət məhz bu sarayda oxucuya və tamaşaçıya təqdim edilir.

Bu obrazların hər biri fərqli bədii surətdir, ancaq müştərək cəhətlərinə görə biri digərinə çox yaxındır. Uzun müddətdir ki, onlar hamısı meşşan həyat tərzi sürür, yaşamağın mənasını varlanmaqda görür, xalqdan oğurlayır, dövləti aldadır, əyri işlərlə məşğul olurlar. Onlar hamısı puş aqibətli adamlardır. Əslində onların hər biri daxilində bir cür faciə yaşayır.

Göründüyü kimi, Ağahüseynin yaşayış imkanları son dərəcə genişdir. "Büllur saray"dan əlavə, şəhərdə də səkkiz böyük otaqdan ibarət mənzili var, ailəsinə üç şəxsi maşın xidmət edir. Həyat yoldaşının və iki qızının geyim və bəzək əşyaları da əsər boyu tez-tez söhbət mövzusu kimi səslənir. Ümumiyyətlə, əsərdəki obrazlar çox vaxt öz dili ilə ifşa olunur. Məsələn, Ağahüseynin öz dilindən eşidilir ki, həm şəhərdə, həm də bağda böyük evi olduğu halda, qonşulqdakı bağı da ələ keçirib öz sahəsinə qatmaq, soyuq havalarda dostlarla gəlib vaxt keçirmək üçün burada yaraşıqlı bir qış binası ucaltmaq niyyətindədir.

Ağahüseyn zahirən çox mülayim, yumşaq görünür. Onun sadə bir siyasəti var: gərək həyat filosofu" olasan, gərək "zəmanəyə saz" olasan ki, hər şeydən baş çıxara biləsən. Buna görə də o, dediyi kimi, "adamların zəif damarını tutmaq" yolu ilə həm öz işini görür, həm də gözlənilən təhlükəyə qarşı həmişə hazır olmaq məqsədi güdür. Ancaq topladığı zəngin sərvət Ağahüseynə və onun ailəsinə xoşbəxtlik gətirmir. Əsərin sonunda kişik qızı Lalə etiraf edir ki, xəcalətdən işdə yoldaşlarımın üzünə baxa bilmirəm. Əlbəttə, atanın ifşa olunması, rüsvay olması, biabırçılıqla işdən götürülməsi ailə üzvləri üçün böyük zərbədir. Hələ bu hadisələrlə üzləşməzdən əvvəl də Ağahüseyn əsl həqiqəti duyur və etiraf edir: "Pul var, dövlət var, amma nə isə yoxdur, nə isə çatmır. "Onların həyatında çatmayan isə sağlam vicdan, xeyirxahlıq hissləri, yalnız özü üçün yox, başqaları üçün də yaşayıb-yaratmaq istəyirdir. Məlum həqiqətdir ki, həqiqi xoşbəxtlik yalnız fərdi aləmlə məhdudlaşa bilməz. O, geniş miqyasa, yüksək humanizmə və sosial ədalət dünyasına can atmalı, qovuşmalıdır ki, ömrü beş günlük yox, əbədi olsun. Lakin Ağahüseynlər, Qədimlər belə bir duyğu və idealdan uzaqdırlar, çünki rüşvətxor, saxtakar, meşşandırlar. Onların nəzərində müqəddəs heç nə yoxdur, hər şey pulla alınır və satılır. Onlar insan şərəfinə, insan ləyaqətinə hər gün yeni-yeni xəyanət hazırlayırlar. Onların aşıb-daşan qazancı əyri yollarla gəlir. Bu, yenilik deyil, hamıya məlum həqiqətdir. Bununla belə, konkret surətlərin dilindən və dramatik vəziyyətlərin mahiyyətindən sözü gedən məsələ ilə əlaqədar ortaya elə suallar çıxır ki, tamaşaçı (həmçinin də oxucu) fikrini ciddi məşğul edir. "Büllur sarayda" dramı laqeydlik hissinə qarşı üsyana, hər cür zərərli "alaq otuna" qarşı, yəni tüfeyli ünsürlərə qarşı mübarizəyə çağıran bir əsərdir. Bu əsər bədii vasitələrlə bizə belə bir duyğu və ideya aşıladığı, qarşıya müasir gerçəkliyin tələblərindən irəli yüksək vətəndaşlıq vəzifəsi və həqiqi insanlıq borcu qayduğu üçün dəyərlidir.

Ağahüseynin dostu Qədim də "büllur sarayın" sakini təsiri bağışlayır. Həmişə xüsusi ehtiramla qarşılanan Qədim hər cəhətdən özünü o ailəyə yaxın adam sayır, "ən doğma adamlar" arasında hiss edir. O, şəhərin varlılarından biri, rayon icraiyyə komitəsinin sədridir. Ancaq biz onu heç vaxt kabinetində, vəzifə başında görmürük, buna heç ehtiyac da yoxdur. Müəllif Qədimi insana və vəzifəyə münasibətinin əsas cizgiləri ilə canlandırmağa nail olmuşdur.

Mədəni görünüşlü, zahirən nəzakətli olan bu cür adamların, Qədimlərin və Ağahüseynlərin maskası buradaca yırtılır, iyrənc təbiətləri üzə çıxır, nümayiş olunur. Məsələn, Qədim, cinayətlərinin üstü açılacağını duyan kimi illərlə əlaqə saxladığı yaxın adamlarından bir neçəsinə qəsd etmək istəyir, katibəsi Sədaqəti, Ağahüseynin kürəkəni Farizi aradan götürmək fikrinə düşür. Bu cür təhlükəli, heç bir pis əməldən çəkinməyən bir adamın xarakteri daha çox Aynur obrazı vasitəsilə açılır. "Büllur saray" sakinləri içərisində Aynur fərqləndirilir.Buna ideya-bədii cəhətdən hər cür əsas var. Aynur daxilən təmiz, saf, cəsarətli, ağıllı bir qadındır. Təbii ki, hər bir insanın böyüyüb tərbiyə aldığı mühitin ab-havası o insana təsir etməyə bilməz. "Büllur saray" mühitinin zəhərli dalğası Aynurdan da yan keçməmişdir. Uzun müddət o da öz həyatını brilyantlarsız və s. dəbdəbəsiz təsəvvür edə bilməmişdir.

Aynur Həbibin anasının fəhlə olduğunu bilmirdi. İlk dəfə onların evinə qonaq gələndə o, Həbibgilin evinin çox sadə olduğunu görür, bu da onu sıxır, Qönçə xanımın adı fəhlə işləməsi ona xoş gəlmir. Bir neçə dəqiqənin içində onun kefi pozulur, qanı qaralır, hətta nahar etməkdən imtina edir. Ancaq Həbibin alıb gətirdiyi konyakdan bir qədəh içir, pərt halda oturub siqaret çəkir. Sonra da gedəcəyi yer var deyə bəhanə edərək o evdən uzaqlaşmağa çalışır. Təbii ki, qonağın bu cür hərəkati, o evdə çörək kəsməməsi ev yiyəsini də pərt edir. Qöncə xanım neçə il keçdikdən sonra da bunu xatırlayır, artıq səhvlərini çoxdan başa düşmüş, həyatda xoşbəxtlik tapmayan Aynur onunla söhbət etməyə gələndə ona deyir: "Qızım, siz sevdiyiniz oğlanın evində çörək kəsmədiniz, ancaq konyak içib siqaret çəkdiniz".(1;328) Qönçə xanım heç vaxt oğlu ilə bunları müzakirə etməsə də, səhəri gün Həbiblə Aynurun arasının dəydiyini, onların həmişəlik ayrıldığını biləndə bunun səbəblərini çox yaxşı başa düşür, ona görə də bir də bu söhbətə qayıtmır.

Əlbəttə, vaxtı ilə Aynur öz mühitində hökm sürən lazımsız şərtlərdən qaçsaydı, az sonra dərin peşmançılıq hissi keçirməz, məhəbbətini qoruyub saxlamaqla xoşbəxtlik tapardı. Aynurun tam ayılması məhəbbətini itirməsi ilə başlanır. Atasının və analığının təkidi, nəsihəti ilə getdiyi ərindən çox tez uzaqlaşır. Yavaş-yavaş o mühitə nifrət etməyə başlayır. Aynurun tam ayılması prosesini bibi nəvəsi Bayandurla tanışlığı və söhbətləri daha da qüvvətləndirir.

Aynur daxilən də, zahirən də gözəl bir qadındır, onunla ailə qurmaq istəyən çoxdur. Qədim onun qəlbini ələ almaq üçün çox çalışır, az qala arxasınca sürünür. Aynurun isə Qədimdən də, atasının başqa dost-tanışlarından da zəhləsi gedir. Onları "Özlərindən razı, tox canavarlar" adlandırır. Cavahir xanıma bu münasibət qəribə gəlir, Aynurun nəyə görə Qədim kimi adamlara nifrət etməsini o başa düşmür, həmişə Aynura öyüd-nəsihət verməyə çalışır, hesab edir ki, Qədim kimi adamı rədd etmək ağılsızlıqdır.

Əsərdə bir çox həqiqət ucadan ilk dəfə məhz Aynurun dilindən eşidilir. Bəzən o, qəribə, təzadlı, anlaşılmaz görünsə də, ifşaedici səciyyəsi ilə seçilir. Gec də olsa başa düşür ki, səadətini əlindən "büllür saray"ın gur işığı, brilyantların soyuq parıltısı aımışdır. Aynur nakam məhəbbət iztirablarının yaşaya-yaşaya ülviləşir. Hətta "büllur saray"ın süqutu digər, sakinləri məyus etdiyi və vahiməyə saldığı halda Aynura kədərli qələbə kimi görünür. O deyir: "Uçub dağılmalı idi bu saray, bu xaniman, cünki çürük sütunları uzərində qurulmuşdu. Biz bunu hiss edirdik, amma həqiqəti görmək istəmirdik. Brilyantların soyuq parıltısı gözlərimizi qamaşdırıb kor etmişdi. Biz unuduruq ki, xalqa xəyanətin cəzası amansız olur."( 1;321)

Bu, Aynurun duyduğu böyük həqiqəti idrakda zirvə məqamıdır. Bir çox amillərlə birgə onu həmin zirvəyə gətirib çıxaran yol iztirablı məhəbbət dünyasından keçir. Əsərdə Aynurla bağlı iki məhəbbət xətti var, bunlardan biri Həbibin, digəri Qədimin məhəbbətidir. İki təzadlı məhəbbət məqamlarında həm müəllif fikri, həm də bəzi həqiqətlərin mahiyyəti aşkara çıxır.

Daxili saflığına baxmayaraq, Aynur-Həbib məhəbbəti uğursuzluqla nəticələnir, gənclər bir-birinə qovuşa bilmirlər. Artıq qeyd etdiyimiz kimi, “büllur saray”ın ab-havası Aynuru da tutmuşdur, onda müəyyən iz buraxmışdır. Aynurun sevgisi nakam sevgiyə çevrilir. Məhv olan təmiz bir məhəbbətin bədii təcəssümü “büllur saray”da yaranan qara fikirlərə, cinayət və xəyanətlərə qarşı etiraz səsi kimi ümumiləşir. Əsərin dramaturji bir nailiyyəti də məhz bu xətlə bağlanıb mənalı etiraz notları ilə şərtlənməsindədir.

Məhəbbətin uğursuz aqibəti Aynuru sarsıtmışdır. Varlı və vəzifəli, özlərindən razı adamlardan o, nəyinsə qisasını almaq istəyir, səhvinə görə özünü bağışlamır, unuda bilmədiyi Həbibi həmişəlik itirməklə günahının mənəvi əzablarını axıra qədər çəkir. Əvvəllər qayğısız bir qız olan Aynurun şən xarakterində getdikcə kədər hissləri dərinləşir.

Təbii ki, Həbib Aynuru nə qədər çox sevsə də, onun xoşagəlməz tələbləri ilə razılaşmazdı.

Həbib öz doğma ocağını buraxıb, anasını tək qoyaraq, qayınatasının alacağı hər hansı bahalı mənzilə köçməyə heç vaxt razı olmazdı, anasını da işdən çıxarmazdı. Sözsüz ki, Həbibin nəzərində bu, ananın illər boyu çəkdiyi zəhməti yerə vurmaqdır. Söhbət getdikcə ciddiləşir, Həbib bir çox nöqtələrə toxunur, elə suallar verir ki, gərginləşən vəziyyət və kəskinləşən fərq ayrılmanı zəruriləşdirir.

Həbib vicdanı təmiz adamdır, özünə görə mövqeyi var, yaxşı tikinti mühəndisidir, yaxşı mütəxəssis kimi tanınır. Məlum həqiqətdir ki, sadə adamlar qürur və şəxsiyyət məsələsinə olduqca həssas yanaşırlar. Həyatda da biz belə hallarla tez-tez rastlaşırıq. Əlbəttə, Həbib əvvəlcədən bilirdi ki, Aynur varlı ailədə böyüyüb. Ancaq onun təmiz və səmimi bir qız olduğunu da görürdü. O, sevdiyi və inandığı qıza müəyyən həqiqətləri başa salıb, onu yanlış fikirlərindən daşındıra da bilərdi. Lakin şəxsiyyətin hansı səbəbə görəsə alçaldılmasına dözə bilmir və qəti hərəkət edir. Digər tərəfdən də iş elə gətirir ki, o, xarici ölkəyə uzun müddətli məzuniyyətə göndərilir, beləliklə əlaqə tamamilə kəsilir, heç bir ünsiyyət olmur. Bir neçə il ərzində Həbibdən heç bir xəbər tutulmur. Ancaq Aynurun mənəvi-psixoloji halları, tək qalarkən öz otağında Həbiblə “görüşləri” və “söhbətləri”, ürək döyüntüləri və etirafları həssaslıqla tamaşaçılara və oxuculara çatdırılır.

Gördüyümüz kimi, Həbib vüqarlı gəncdir, haqq-ədalət tərəfdarıdır, sağlam mühakimə edir. “Mənim o fəhlə anam sənin milyoner atandan yüz dəfə şərəfli adamdır” deyəndə o haqlı idi. Həbib yaddaqalan obrazdır, əsərdə az-az görünsə də unudulmur.

Aynur Həbib, Qönçə obrazları yazıçının estetik idealı ilə sıx bağlıdır. Əsərin dördüncü şəklində Qönçə xanımla Aynur arasındakı söhbətlər kimin haqlı, kimin haqsız olduğunu, ləyaqəti və gözəlliyi nədə axtarmaq lazım gəldiyini üzə çıxarır. Tamaşaçı və oxucu Aynurun da, anamın da sözlərinin səmiyyətinə inanır, həyəcanlarını duyur. Özü dediyi kimi, “dünyanın ən yaxşı bir oğlanın itirən Aynur özü öz taleyi əleyhinə getdiyi üçün xoşbəxt deyildir. “Ulduzları barışmayan” gənclərin taleyi, əlbəttə ananı da çox narahat edir. Qönçə xanım insan ömrünün mənasına dair səmimi duyğu və düşüncələrini açıq etiraflarla bildirir. Anamın fikrincə, dünyada ən böyük xoşbəxtlik azadlıqdır. “Azadlıq” deyəndə ürək azadlığı, vicdan azadlığı nəzərdə tutulur. “Ürək genişliyi”, “gözütoxluq” kimi müdrik ifadələr də bu fikirlərdən yaranmışdır. Ona görə də brilyantın, qızılın əsiri olan insanlar xoşbəxt ola bilmirlər. Çünki kölə xoşbəxt ola bilməz. Ananın bu fikri ilə razılaşmamaq olmur.

Müəllif göstərir ki, Aynur kimi gənclərin arzularını vaxtsız solduran, məhəbbətlərini puç edən ən başlıca səbəblərdən biri əyri yollarla sərvət əldə edən, “büllur saray”lar ucaldan ataların əməlləri, onların verdiyi tərbiyə və göstərdikləri təsirdir. Bu, acı bir həqiqətdir, təkcə Qönçə xanımın gəldiyi qənat deyildir. Ona görə də oxucu və tamaşaçı Qönçə xanımla tam razılaşır. Ümumiyyətlə, bu fikir pyesin ümumi ruhunu təşkil edir.

Əsərin ideyasını Aynur–Qədim xətti də tamamlayır. Qədim yüksək vəzifəli, varlı, yaraşıqlı olsa da, Aynurun məhəbbətini qazana bilmir. Şirin vədlərin, bahalı daş-qaşların, xüsusi ciddi-cəhdlərin heç bir təsiri olmur. Bunun əsas səbəbi, əlbəttə, Aynurun hələ də Həbibin mə-

həbbətini ürəyindən çıxara bilməməsidir, ancaq bu yeganə səbəb deyil. Aynur Qədimin necə bir adam olduğuna yaxşı bələddir.

Qədimin simasını cəsarətlə açan, hamıya tanıdan obraz da Aynurdur. Yüksək vəzifəli şəxsin, şikayətçiləri günlərlə get-gələ salan, qəbul edəndə başdansovdu cavablarla geri qaytaran Qədimin, onun–Aynurun arxasınca sürünməsi, Aynurun tikanlı sözlərini vecinə almaması, özünü alçaltması Aynura ləzzət verir. Qədim isə “Gülün, təhqir eləyin, öldürün, ancaq bilin ki, yaşaya bilmirəm sizsiz” deyir, nəyin bahasına olursa-olsun Aynura qovuşmağa can atır.

Qədim mənəvi cəhətdən eybəcər olan meşşan tipidir. Məlum həqiqətdir ki, meşşanlıq şəxsiyyəti daxildən deqradasiyaya uğradır, çürüdür.

Artıq qeyd etdiyimiz kimi, Aynur ziddiyyətli xarakterdir. Məsələn, uzun müddət o, atasının “keçmişdə çoxlu pul tapmışam” sözlərinə özünü inandırmağa çalışmışdır. Atasının açıbdaşan qazancına göz yummuşdur. Ancaq Qədimi mühakiməyə çəkir, “soruşmaq ayıb olmasın, haradan sizdə o qədər pul” və s. bu kimi suallarla onu ifşa obyektinə çevirir. Bu oyanma prosesi Aynurda hadisə və vəziyyətlərin təsiri ilə baş qaldırır. Həbiblə, Qöncə ilə, sonralar Bayandurla, Təbrizlə ünsiyyət Aynura müsbət təsir göstərmiş, yaşadığı mühitin dəhşətlərini aydın görməyə və qətiyyətli olmağa kömək etmişdir. Aynur vaxtilə Həbibdə gördüyü müsbət xüsusiyyətləri bibi Bayandurda və onun dostu Təbrizdə gördüyü üçün bu gənclərlə münasibətləri möhkəmlənir. Gördüyümüz kimi, Bayandur mərd, ürəyi təmiz, açıq danışmağı sevən, hazırcavab gəncdir. Bayandur və Təbriz böyük arzularla yaşayan, əməksevər, yüksək məqsdli cavanlardır.

Bayandurun arzusu hüquq fakültəsinə daxil olmaqdır. Təəssüf ki, bir çox cavanlar hüquqşünaslıq sahəsini ona görə seçirlər ki, gələcəkdə prokuror, hakim olaraq yüksək gəlir əldə etsinlər. Bir çox insanlar (özü də bu yalnız ötən əsrin 70–80-ci illərində yox, bütün dövrlərdə rast gəldiyimiz haldır) rüşvətxorluğa pis baxmır, ailələrini və övladlarını təmin etmək üçün çalışdıqlarını iddia edərək özlərini doğrultmağa çalışırlar.

Bayandur isə romantik bir gəncdir, o, ədalət tərəfdarıdır, insanların hüquqlarını qorumaq, qayda-qanun keşiyində durmaq üçün prokuror olmaq istəyir.

*“Büllur sarayda” pyesi bu gün də aktuallığını saxlamaqdadır. Əsərin 2014-cü ildə S.Vurğun adına Rus Dram Teatrında yeni quruluşda səhnəyə qoyulması və tamaşaçılar tərəfindən böyük bir maraqla qarşılanması buna gözəl bir sübutdur.*

## Ədəbiyyat:

1. İ. Əfəndiyev. Seçilmiş əsərləri. 7 cilddə. III cild. B., “Çinar”, 2002. – 613 s.
2. Y.İsmayılov. İlyas Əfəndiyevin yaradıcılıq yolu. B., “Elm”, 1991. – 261 s.

**Айтен Рустамзаде**

## Морально-этические ценности в пьесе И.Эфендиева «В хрустальном дворце»

## *РЕЗЮМЕ*

В статье анализируется пьеса « В хрустальном дворце» одного из виднейших представителей азербайджанской литературы XX века Ильяса Эфендиева. Подчеркивается отношение писателя к морально- этическим ценностям. Говорится о запоминающихся образах, созданных писателем, а также о психологии представителей разных сословий. Подчеркивается актуальность этой проблемы и в наши дни.

**Aytan Rustamzadeh**

**The Moral and Ethics Valuable in the play by I.Afandiyev “At the Crystal Palace”**

***SUMMARY***

The article is discusses the play “At the Crystal Palace ” by one of the famouse Azerbaijani writers of XX century Ilyas Afandiyev. Emphasizes the writer’s attitude to moral and ethical values. It is said about memorable images created by the playwright, as well as about the psychology of people of different classes.Emphazises the relevance of this problem in our days.

*Redaksiyaya daxil olma tarixi: 16.11.2018*
*Çapa qəbul olunma tarixi: 03.12.2018*

Filologiya üzrə elmlər doktoru, professor **Bədirxan Əhmədov**
tərəfindən çapa tövsiyə olunmuşdur.